

*CƏMİLƏ HİDAYƏTQIZI*

**NƏSİMİ DÖZMƏDİ VƏTƏN AHINA...**

Bəzən saf arzular donur ürək də,
Bəzən cicəklər də solur dibcək də.
Bir gün bu bəşər də gül tək solacaq,
Arzular, diləklər yarım qalacaq.

***

Həyatın eşqiylə yaşıyır insan,
Bir ömür yükün daşıyır insan,
Ömrü öz xoşuyla o, tərk etməyir,
Əzrayıl gəlməsə insan qetməyir.

***

Nəsimi dözmədi Vətən ahına,
Sığına bilmədi haqqsız cəhana.
Məhs haqqın yolunda igid vuruşdu,
Bu haqqsız cəhandan haqqa qovuşdu...

**QABİL SƏN, QARABAĞIN BİR MƏRD QƏHRAMANISAN...**

Kaş bir yağış olaydım məzarına yağaydım,
Bərkə onda mən sənə, daha yaxın olardım.
Fəqət bu bir arzudur bir xəyali arzudur,
Bucür xəyali arzu yuxularda doğrulur.

Mən şəklinə baxıram, şəklin də mənə baxır,
Bu qəmli baxışların məni yandırır-yaxır.
Bir söz deyə:- bilmirsən lal olub susursan sən,
Mən də boyun bükürəm sən də boyun bükürsən.

Qabil sən, Qarabağın bir mərd qəhramanısan,
Bu qürurla məzarda rahat yuxulardasan.
Belə nəsib həm mənə həm sənə təsəllidir,
Boynumuzu bükməyək qəlb bunu səsləndirir:-

**NATİQ QARABAĞI ÜRƏKDƏN SEVİRDİ...**

Tutulul gözlərim rəsminə baxanda,
Gözlərim yaşlanır, əllərim yaxamda.
Bu bala naləsi çox böyük nalədir,
Bu naləyə möhkəm bir ürək gərəkdir.

Bəzən bu dağlar da qumlara dönürlər,
Dərdə dözəmməyib dağlar əriyirlər.
Dağda öz yükünü daşıya bilmirsə,
Cətin ki, bu yükü daşıya bir kimsə.

Natiq Qarabağı ürəkdən sevirdi,
Bu sevqisini də o, sübut eylədi.
Aldı silahını getdi Qarabağa,
Ömrü fəda etdi bu ulu torpağa...

**VƏTƏN TORPAĞINA MƏN QURBAN OLUM, VƏTƏNİN OĞLUYDU İGİD TEYMURUM...**

Gözlərim yollara səninçün baxır,
İntizar gözlərim səni, axtarır.
Ürəyim dolsada, gözlərim dolmur,
Sənsiz, göz yaşı da gülüş də olmur.

Ömür yarpaqların soldu budağda,
Qəfil qocaldım mən gənclik cağımda.
Nə yazımı gördüm nə də baharı,
Boran-qış apardı əlvan aylan.

Doğma torpağıma mən qurban olum,
Vətənin oğluydu igid Teymurum.
Vətən sevqisini qəlbə doldurdu,
Vətən sevqisiylə o, şəhid oldu...

**İLK YAZ-BAHARIMIN İLKİNİ OĞLUM...**

İntizar gözlərə tor hörülübdür,
Nə gələnim vardır nə də gedənim,
Balamın yoxluğu məni öldürür,
Mən dərdi çəkməyim de:- bəs neyləyim?

Düşmən gülləsindən qorxmadın bala,
Güllələr sinənə atıldı sənin,
Geri çəkilmədin vuruşdun odla,
Ömrünü xalqına sən, qurban etdin.

İlk yaz-baharımın İlkini oğlum,
Öpüm məzarını öpüm də doyum.
Mən səndən, doymadım sənsə, həyatdan,
Vətəninçün öldün, köçdün cəhandan...

**MƏTLƏB KƏLBƏCƏRİN HARAYINA COŞDU...**

Tuta bilməyirəm daha əlindən,
Kölqə tək yox olub gizlənir məndən.
Məni yenə tənha qoyur qəmimlə,
Dodaq pıcıldaşır yenə qəlbimlə

Gedərkən əlvida sözü demədi:-
Dönüşünə ümüd edib də getdi.
Bilsəydi əzrayıl yol yoldaşıdı,
Mütlək o, bizimlə vidalaşardı.

Mətləb Kəlbəcərin harayna coşdu,
Torpağa sarıldı, son an qovuşdu.
Mətləbinə catdı qəlbi dincəldi,
O, mərd, alnı acıq köcüb də getdi...

**ÜRƏKDƏ HEYKƏLDİR MƏNİM CƏBRAYILIM, ƏLLƏR KAMAN CALSIN MƏN FƏQİR AĞLAYIM...**

Küləknən başlayan bu payız səhəri,
Oyadıb icimdə amansız qəhəri.
Qəhər təbiyəti bu gün alır ələ,
O məni qorxudur öz əhatəsiylə.

Gözlər kor olublar baxmaq istəmirlər,
Qulaqlar kardılar duymaq istəmirlər.
Odlu ataşlərə necə dözsün ürək,
Susdurmur atəşi nə yağış, nə külək.

Ürəkdə heykəldir mənim Cəbrayılım,
Əllər kaman calsın mən fəqir ağlayım.
Bərkə göz yaşlarım caylar kimi daşar,
Susdurar atəşi, qəlb sevinclə yaşar...

**DOYUNCA YAŞAYA BİLMƏDİN YAŞAR, QƏLBİN DƏ AHUZAR HƏLƏ DƏ DAŞAR...**

Küsqün baxışların qəlbimi üzür,
Qəlbimə qəhəri muncuq tək düzür.
Nədən küsdüyünü mən də bilirəm,
Fəqət mən də sən tək küsqün biriyəm.

Bu rəsmin sussa da ruhun danışır,
Arabir ruhuna gözüm sataşır.
Pıcıldar qulağa bu ruhun ahla,
Lacını soruşar bu ruhun vayla.

Doyunca yaşaya bilmədin Yaşar,
Qəlbin də ahuzar hələ də daşar.
Sənə, bircə sözüm bircə təsəllim,
Lacından əl çəkməz mərd igidlərim...

**BİR QƏBİR ON ŞƏHİDİN AXIR MƏNZİLİ OLDU...**

Dünya malı dünyada qalır belə deyirlər:-
Dünyadan köcənlərsə ağ kəfən geyinirlər.
İnsanın son mənzili sim-siyah məzarıdır,
Siyah mənzildə yalnız bir insan yatmalıdır.

Daşaltı şəhitlərcün döyülmüşdi sinələr,
Ağbircək analan o, gün qaldılar mələr.
Qana bürünmüş, cansız, buz tək cisimlərinə,
Daşda baxsaydı əgər oda döyərdi sinə.

Bir qəbir on şəhidin axır mənzili oldu,
Bir yerə sığınıblar bunu görən göz doldu,
Hərənin öz kəfəni olsada o, məzarda
Qəlbləri qalıb darda, gözlərsə intizarada...

**QORXMADI DÜŞMƏNDƏN BİZİM BU İGİD, VƏTƏN EŞQİ ONU EYLƏDİ ŞƏHİD.**

İyirmi beş bahar yaşiyan oğlum,
Baharın ömrünə doymayan oğlum.
Qar yağdı qəflətən gənclik cağına,
Bu son qar ələndi son libasına.

Sevirdi torpağı, həm də dənizi,
Sevirdi Vətəni, sevirdi bizi.
Qorxmadı düşməndən bizim bu igid,
Vətən eşqi onu eylədi şəhid.

Cismin torpağındı, ruhun bizimdi,
Ruhun rahat olsun Lacın bizimdi.
Bu Samir isminə Lacın da bir gün,
Acılar bir məktəb canlanar gülün...

***"Ömür fanidir-fani gələn bir gün gedəcək, Geç də olsa nə vaxtsa ölümə can verəcək..."***

**MEHMAN HAQQLA YAŞADI, HAQQLA KÖCDÜ DÜNYADAN...**

Hər ilin son günün də səni, təbrik edirdik,
Ad gününü bayramla bərabər kecirdirdik.
İndi səndən, səs-səda gəlməyir bizim evdən,
Bayramların qaradır sən, cıxıb gedən gündən.

Yaram yaman dərindir ölümdən də betərdir,
Yarama duz səpənsə balamın həsrətidir.
Səmum yelləri kimi ötür balamsız illər,
Gör mən yaralı ana indi cəkirəm nələr.

Mehman haqla yaşadı, haqla köcdü dünyadan,
Haqq yolunu azmadı, dönmədi haqq yolundan.
Vaxt gələcək Şuşada bir heykəli olacaq,
Ruhu göylərdən baxıb o, rahatlığ tapacaq...

**VƏTƏNPƏRVƏR ÇİNGİZİM BU XALQ SƏNLƏ, FƏXR EDİR AZƏRİ DİYARINDA ADIN DAİM SƏSLƏNİR...**

*(Jurnalist Cingiz Mustafayevın əziz xatirəsinə həsr olunur)*

Bir oğul gəlmiş idi bəşərin ocağına,
Onun üzü bənzərdi bir nurun işığına.
Ürəyi təmiz idi, Babək tək o, mərd idi
O, bəşər ocağına fərəhi gətirərdi.

Fələk aman vermədi onu cox gördü bizə,
O, zamansız ölümlə gəlib durdu üz-üzə.
Belə qocağ igidi bu bəşər də itirdik,
Nə ayiləsi nə biz ona doya bilmədik.

Vətənpərvər Cingizim bu xalq sənlə, fəxr edir
Azəri diyarında adın dayim səslənir.
Adına məkanlar var buna sevinir ürək,
O, gün olsun Lacında biz adına rast gələk...

**FƏRİZƏ, İLHAMDAN HEÇ AYRI QALAR?**

Gündüz qəfl zülmət gecəyə döndü,
Bu dünya mətəmə, yasa büründü.
Bütün ürəklərə düşmüşdü dügün,
Bir gənc ayilənin dağıldığı gün.

Yeni evil olan iki gəncimiz,
Köc etdilər onlar səssiz, səmirsiz.
Toy qismət olsa da, sevinc olmadı,
Yanan şam sona dək hayıf yanmadı.

Fərizə, İlhamdan heç ayrı qalar?
Hər iki dünyada yoldaş oldular.
Toy üçün cəkilən bəy, gəlin rəsmi,
Mərmər üstə bizə bəxş edir qəmi...

**NAMƏLUM...**

İnsan dünyaya naməlum, naməlum olarağ gəlib?
Məyər Tanrım insanlara məlum tale bəxş etməyib?
O, yaşayarkən ismiylə yaşayardı bu həyatda,
Bəs indi niyə naməlum yazılıbdır məzarında?

Dolğun fikirlər, xəyallar, cavabsız qalan suallar,
Bir ilan kimi boynuma sarılıb məni boğurlar.
Naməlum məzar daşını qəmli gözlərim görən də,
Bir cox simalar dolaşır bu məzarın kölqəsin də.

Mən bu naməlum məzarın önündə azıb qalmışam,
Kimin adına salavat göndərim "vallah" caşbaşam.
Hansı gülü, cicəkləri o, sevib, qoxlardı görən?
Axı kimdən soruşum mən kimdir bu cavabı bilən...?

**ADINI SAHİL DƏ QUMLARA YAZDIM...**

Sən, getdin mən isə bu yerdə qaldım,
Bu dörd divarda mən xəyala daldım.
Mənlə dost oldular xəyal, tənhalıq
İşığlı ömrümə düşdü qaranlıq.

Hərdən üz tuturam səssiz sahilə,
Seyr edib dənizi cəkirəm nalə.
Səni, fəryad edib cağırıram mən,
Barı səsimə səs verqinən hərdən.

Adını sahil də qumlara yazdım,
Dənizlə bərabər bu göz yaşlarım,
Elman, bu adını yuyub, aparır
Adında özün tək tez vidalaşır....

**BU TORPAĞ DA HƏCƏR TƏK VAR İDİ BİR QIZIMIZ, SALATIN ƏSGƏROVA TANIYIRIĞ HAMIMIZ...**

*(Jurnalist Salatın Əsgərovanın əziz xatirəsinə həsr edilir)*

Ocağı alışdıran, körpəyə həyat verən,
Qadındır əlbətdə ki, bunu yox inkar edən.
Cənnət də məhs ananın ayağı altındadır,
Əhlibeytin də tacı Fatimeyi Zəhradır.

Qadın mələk tək gəlib bu füsünkar cəhana,
Bu mələk bəzən dönür bəşər də bir dastana.
Qadın zərifdir, zəyif deyil:- bu bir həqiqət,
İstəsə dağ da yarar qadın da vardır qüvvət.

Bu torpağ da Həcər tək var idi bir qızımız,
Salatın Əsgərova tanıyırığ hamımız.
Bu mərd qadına qiptə edirlər Azərilər,
İsminə Qarabağda qoşulacağ nəğmələr...

**AH LARİSA QIZIM, İNDİ HARDASAN?**

Gözlərimin ağı, qarası balam,
Fələk qoymadı ki, mən səndən doyam.
Sacına hər gecə verirdim tumar,
İndi əlim boşdur, ürəyim qubar.

Qorxma mənim balam anan sənlədi,
Mərmər daşın üstə, sinən üstədi.
Mən yenə də lay-lay deyəçəm:- sənə,
Sən, rahat yat anan qurban qəbrinə.

Ah Larisa qızım, indi hardasan?
Ananı evdə tək, yalqız qoymusan.
Özün gəlmirsənsə ruhunu göndər,
Barı o, ruhundan gəlsin bir xəbər

**BU RƏŞİD ADINI QOYMUŞDU ATAN, ATAN İNANIRDI SƏNƏ, HƏR ZAMAN...**

Ondoqquz yaşında balam köç etdi,
Bağrımı dağlayıb, ömrümü ditdi.
İndi ad günün də qəbri üstəyəm,
Təbriki ruhuna göndərməliyəm.

Torpağın uğrunda canından keçdi,
O, təslim olmadın ölümü seçdi.
Vətənim fəxr edir bu qəhrəmanla,
Ucalır bayrağım onun adıyla.

Bu Rəşid adını qoymuşdu atan,
Atan inanırdı sənə, hər zaman.
Atanın üzünü ağ etdin oğul,
Günəş tək yurdunda yenidən doğul...